


© UNICEF Azerbaijan/2022/Aliyev

# Dövlət büdcəsinin icmalı

## Azərbaycanda uşaqlara qoyulan investisiya

2022

# Giriş

Bu büdcə icmalı Azərbaycanda dövlət büdcəsinin uşaqların ehtiyaclarına nə dərəcədə cavab verib-vermədiyini araşdırır[1] .

**Bu icmalda təqdim olunan təhlillər iki məlumat toplusuna əsaslanır:**

A) uşaqlar üçün prioritet olan sektorların, yəni səhiyyə, təhsil və sosial müdafiənin həcmini və tərkibini qiymətləndirmək məqsədilə **2022-ci maliyyə ili üçün büdcə ayırmaları;**

B) dövlət xərclərinin səmərəliliyi, effektivliyi və yetərliliyinə dair fikirlər təqdim edən **2021-ci il və son 4 ilin büdcəsinin icrası.**

Büdcə icmalı Azərbaycanda uşaq hüquqları nöqteyi-nəzərindən büdcəyə dair kompleks məlumatları sintez etmək və hökumətin uşaqlara qoyulan investisiyaları necə təkmilləşdirə biləcəyi ilə bağlı müzakirə açmaq məqsədi daşıyır.

## Əsas məqamlar

• Mürəkkəb qlobal iqtisadi çağırışlar şəraitində Azərbaycan iqtisadiyyatının bir çox sahələri də tənəzzülə uğramışdır. 2020-ci ildə neft və qeyri-neft sektorunda ÜDM müvafiq olaraq 7,0 faiz və 2,6 faiz azalmışdır. Ölkə iqtisadiyyatı 72,4 milyard manat həcmində (2019-cu illə müqayisədə 4,3 faiz az) ÜDM istehsal etmişdir. 2021-ci ildə iqtisadiyyat bərpa olunmağa başlamış və ölkədə real ifadədə 92,8 milyard manat həcmində və ya 2020-ci illə müqayisədə 5,6 faiz çox ÜDM istehsal edilmişdir. Qeyri-neft sektorunda 5,1 faiz artıma baxmayaraq, neft-qaz sektorunda 4,7 faiz azalma müşahidə edilmişdir.

• 2022-ci ilin dövlət büdcəsinin xərclərinin 26816,0 milyon manat həcmində olacağı proqnozlaşdırılır ki, bu da 2021-ci ilin təsdiq edilmiş göstəricisindən 4,7 faiz çoxdur. Dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 34,5 faiz təşkil edəcək. Son 5 ildə (2018-2022) dövlət büdcəsinin xərcləri 31,4 faiz (7147,4 milyon manat) artmışdır.

• Təhsilə ayrılan vəsait 2022-ci ilin dövlət büdcəsinin 13%-ni təşkil edəcək ki, bu da 2021-ci ildəki müvafiq rəqəmdən 1,5% çoxdur. Səhiyyə sektoruna ayırmaların dövlət büdcəsində xüsusi çəkisi 6% olacağı halda, bu rəqəm ÜDM-in 2,1%-ni (2021-ci ilə nisbətən 0,1% çox) təşkil edəcək. Artıma baxmayaraq, səhiyyəyə ayırmaların ÜDM-də payı aşağı olaraq qalır. 2022-ci ilin dövlət büdcəsində sosial müdafiəyə ayırmaların xüsusi çəkisi 12,2 faiz təşkil edəcək. Bütövlükdə, son 5 ildə (2018-2022-ci illər) dövlət büdcəsində sosial müdafiə və sosial təminat ayırmalarının xüsusi çəkisi 3% (1,41 milyard manat) artmışdır. Hökumətin COVID-19 pandemiyasına qarşı cavab tədbirləri üçün ayırmalarının 350 milyon manat (dövlət büdcəsində payı 1,2%) olacağı proqnozlaşdırılır.



© UNICEF Azerbaijan/2018/Bell

[1] "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanuna əsasən 18 yaşına çatmamış şəxslər

# AZƏRBAYCANIN MAKROİQTİSADİ FƏALİYYƏTİ

Mürəkkəb qlobal iqtisadi çağırışlar şəraitində Azərbaycan iqtisadiyyatının bir çox sahələri də geriləməyə uğramışdır. 2020-ci ildə neft və qeyri-neft sektorunda ÜDM müvafiq olaraq 7,0 faiz və 2,6 faiz azalmışdır.

Ölkə iqtisadiyyatı 72,4 milyard manat həcmində ÜDM istehsal etmişdir ki, bu da 2019-cu illə müqayisədə real ifadədə 4,3 faiz azdır. 2021-ci ildə iqtisadiyyat bərpa olunmağa başlamış və ölkədə real ifadədə 92,8 milyard manat həcmində və ya 2020-ci illə müqayisədə 5,6 faiz çox ÜDM istehsal edilmişdir. Qeyri-neft sektorunda 5,1 faiz artıma baxmayaraq, neft-qaz sektorunda 4,7 faiz azalma müşahidə edilmişdir.

Mövcud qlobal iqtisadi çağırışları nəzərə alaraq, Hökumət 2021-ci ildə təsdiq edilmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” adlı sənədin qəbul edilməsindən sonra qısa və ortamüddətli dövr üçün büdcə siyasətinin məqsədlərini, istiqamətlərini və vəzifələrini müəyyən etmişdir.

Qısa müddətdə büdcə siyasətinin əsas məqsədi iqtisadi artıma töhfə verməklə, inflyasiyanın, işsizliyin, tədiyyə balansının sabitliyini fiskal alətlər vasitəsilə təmin etməklə makroiqtisadi tarazlığı qorumaqdan ibarətdir.

Ortamüddətli perspektivdə büdcə siyasətinin əsas məqsədi büdcə kəsirini və dövlət borcunu idarə olunan səviyyədə saxlamaqla büdcə tarazlığını, makroiqtisadi və fiskal dayanıqlığı təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün təkmilləşdirilmiş büdcə qaydası və yenilənmiş borclanma strategiyasına əsaslanan makrofiskal çərçivənin hazırlanması ortamüddətli büdcə siyasətinin əsas istiqamətlərindən biri olacaqdır.

1 USD=1.70 AZN

Qrafik 1. Azərbaycanın iqtisadi göstəricilərinin illər üzrə təsviri




Qrafik 2. ÜDM-in illər üzrə strukturu




Qrafik 3. Seçilmiş ölkələr arasında ÜDM-in artım tempi



# COVID 19 PANDEMİYASINA QARŞI CAVAB TƏDBİRLƏRİ

Koronavirusun ölkədə yayılmasına qarşı hökumət tərəfindən həyata keçirilən tədbirlərin əlaqələndirilməsi məqsədilə Hökumət 27 fevral 2020-ci il tarixində Nazirlər Kabineti yanında aidiyyəti qurumların rəhbər işçilərindən ibarət Operativ Qərargahı yaratdı. Ölkənin cavab tədbirlərinə maliyyə yardımı göstərmək üçün Dəstək Fondu yaradılmışdır.

COVID-19 pandemiyasının mənfi təsirlərini azaltmaq üçün 2020-ci ildə Azərbaycan hökuməti bizneslərə və fiziki şəxslərə 3,29 milyard manat (ÜDM-in 4%-i) dəyərində dəstək paketi açıqlamışdır

1. İşsizlikdən sığortanın əhatə dairəsinin 20.000 nəfərə qədər genişləndirilməsi;
2. 600.000 fiziki şəxsə (əhalinin 6%-i) birdəfəlik nağd pul (altı dəfə ödənilib) köçürməsi (2020-2021-ci illər üçün 680 milyon manat)
3. Əhaliyə ödənilən sosial ödənişlərin (pensiya və müavinətlər) dayanıqlılığını təmin etmək məqsədilə 2020-ci ilin aprel ayından dekabr ayınadək olan müddət üçün Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il ehtiyatlarından istifadə;
4. Aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının ödənilməsi müddətinin karantin rejimi başa çatanadək uzadılması;
5. Ünvanlı dövlət sosial yardım proqramlarının əhatə dairəsinin genişləndirilməsi;
6. Sosial cəhətdən həssas ailələrdən olan tələbələrin illik təhsil haqqının dövlət büdcəsindən ödənilməsi (40,8 milyon manat);
7. Vətəndaşların tibbi maskalara olan tələbatının ödənilməsi üçün dövlət büdcəsindən vəsaitin ayrılması (4,6 milyon manat);
8. Elektrik enerjisindən istifadə üzrə mövcud güzəşt limitlərinin müvəqqəti olaraq artırılması (10 milyon manat);
9. İqtisadiyyatın zərər çəkmiş sahələrində 300 000 fərdi sahibkara birbaşa maliyyə dəstəyi (80 milyon manat);
10. Bu sektorlarda çalışan 300 min işçinin əmək haqqının qismən ödənilməsi (215 milyon manat);
11. İqtisadiyyatın zərər çəkmiş sektorlarında vergi, sığorta və gömrük ödənişlərindən müvəqqəti azadolmalar (116 milyon manat);
12. Zəruri sərnişin daşıma sistemlərinə maliyyə dəstəyinin göstərilməsi (280 milyon manat);
13. Pandemiyadan zərər çəkmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dövlət zəmanətlərinin verilməsi və bank kreditləri üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması (510 milyon manat);
14. Dövlət zəmanəti olmayan mövcud bank kreditləri üzrə faiz dərəcəsinin bir hissəsinin subsidiyalaşdırılması (1 milyard manat);

Qrafik 4. COVID-19 Pandemiyasına qarşı cavab tədbirləri üçün dövlət büdcəsindən ayırmalar




COVID 19 pandemiyasına qarşı cavab tədbirləri üçün bu ayırmalar yalnız vaksinlərin, testlərin, dərmanların, tibbi l əvazimatların, avadanlıqların və peyvənd təminatı üçün digər malların və tibbi xidmətlərin alınmasını, eləcə də işçilərin maaşlarını və dövri bonusları əhatə edir.



© UNICEF Azerbaijan/2022/Aliyev

# BÜDCƏNİN İNKİŞAF İSTİQAMƏTİ

2022-ci il dövlət büdcəsinin gəlirləri 26816,0 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da ÜDM-in 31,0 faizini təşkil edir. 2022-ci il dövlət büdcəsinin proqnozlaşdırılan gəlirlərinin 54,8 faizi (14690,0 manat) neft sektorunun, 45,2 faizi (12126,0 milyon manat) qeyri-neft sektorunun payına düşür.

2022-ci il dövlət büdcəsinin xərcləri 29879,0 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da 2021-ci ilin təsdiq edilmiş göstəricisindən 4,7 faiz çoxdur. Dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 34,5 faiz təşkil edəcək. Son 5 ildə (2018-2022) dövlət büdcəsinin xərcləri 31,4 faiz (7147,4 milyon manat) artmışdır.

**Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi**

2021-ci ildə büdcənin böyük bir qismi xarici və daxili borclanma hesabına maliyyələşdirilmişdir. 2022-ci ildə kəsirin maliyyələşdirilməsi mənbəyi kimi xarici və daxili borclanmanın payının 35,9 faizə düşəcəyi gözlənilir. Eyni zamanda, imzalanmış layihələrin cəlb etdiyi kreditlərin büdcə kəsirinin maliyyələşdirilməsində xüsusi çəkisinin 19,4 faizədək azalacağı gözlənilir. İqtisadiyyatın bərpası şəraitində vahid xəzinə hesabının qalığının (41,0 faiz) gələn ilin büdcə kəsirinin əsas maliyyələşməsində əsas mənbə kimi çıxış edəcəyi proqnozlaşdırılır.



© UNICEF Azerbaijan/2018/Bell

Qrafik 5. Büdcə kəsirinin maliyyələşdirilməsi mənbələri




Beynəlxalq Valyuta Fondunun tərifinə görə, vahid xəzinə hesabı hökumətin pul vəsaitlərinin ümumi mənzərəsini yaradan dövlət bank hesablarının vahid strukturudur. O, hökumətlərin pul resurslarının konsolidasiya edilməsi və idarə edilməsi üçün vacib alətdir və öz növbəsində, borclanma xərclərini minimuma endirir

# 2022-ci ilin DÖVLƏT BÜDCƏSİ

Qrafik 6. 2022-ci il büdcəsindən sektorlar üzrə ayırmalar və büdcədə payı






© UNICEF Azerbaijan/2022/Aliyev

# 2022-ci il BÜDCƏSİNDƏN UŞAQLAR ÜÇÜN PRİORİTET SEKTORLAR ÜZRƏ AYIRMALAR



© UNICEF Azerbaijan/2022/Aliyev

Gələn il dövlət büdcəsindən təhsilə 3,88 milyard manat ayrılacaq ki, bu da 2021-ci ildə ayrılmış vəsaitdən 606,7 milyon manat və ya 18,5 faiz çoxdur. Proqnozlara əsasən bu rəqəm ÜDM-in 4,5%-nə bərabər olacaq və 2021-ci ilin göstəricisindən 0,5% çoxdur.

2022-ci ilin dövlət büdcəsində səhiyyə sahəsinə 1,78 milyard manat ayrılmışdır. Bu, 2021-ci ilin göstəricisindən 7,1% (118,6 milyon manat) çoxdur. Səhiyyə sektoruna ayırmaların dövlət büdcəsində xüsusi çəkisi 6% olacağı halda, bu rəqəm ÜDM-in 2,1%-ni təşkil edəcək (2021-ci ilin göstəricisindən 0,1% çox). Artıma baxmayaraq, səhiyyəyə ayırmaların ÜDM-də payı aşağı olaraq qalır. Müqayisə üçün, bu rəqəmlər Rusiyada 5,6%, Türkiyədə isə 4,3% təşkil edir.

Hökumətin COVID-19-a qarşı cavab tədbirlərinə ayırmaların 350 milyon manat (dövlət büdcəsində payı 1,2%) olacağı proqnozlaşdırılır.

2022-ci il üçün sosial müdafiə və sosial təminat üçün ayırmaların 3,64 milyard manat həcmində proqnozlaşdırılmışdır. Bu, 2021-ci illə müqayisədə 50,1 milyon manat və ya 2,4% azdır.

Sosial müdafiə və sosial təminat ayırmaları dövlət büdcəsinin 12,2 faizini, ÜDM-in isə 3,9 faizini təşkil edəcək. Hökumətin də təsvir etdiyi kimi, sosial müdafiə ayırmalarının azalmasının əsas səbəbi Sosial Müdafiə Fondunun gəlirlərinin artması və bunun fonunda dövlət büdcəsindən fonda transfertlərin azaldılmasıdır.

Bütövlükdə, son 5 ildə (2018-2022) dövlət büdcəsində sosial müdafiə və sosial təminat ayırmalarının xüsusi çəkisi 3% (1,41 milyard manat) artmışdır.

Qrafik 7. Prioritet sektorlar üzrə büdcə ayırmalarının 2022-ci ilin ümumi milli büdcəsində və ÜDM-də payı[3]




Qrafik 8. Prioritet sektorlar üzrə büdcə ayırmalarının illər üzrə bölgüsü




[3]2021-ci ilin dekabr ayı üçün ÜDM= 92,8 milyard manat, https://www.stat.gov.az/news/macroeconomy.php?page=2?lang=en

# 2021-Cİ İL BÜDCƏSİNİN İCRASI



© UNICEF Azerbaijan/2022/Aliyev

**Dövlət büdcəsinin gəlirləri**

2021-ci il dövlət büdcəsinin gəlirləri proqnozu 3,8 faiz (968,5 milyon manat) üstələyərək 25427,0 milyon manat təşkil etmişdir. Bu, 2020-ci ilin göstəriciləri ilə müqayisədə 6,9 faiz (1713,8 milyon manat) çoxdur. Qeyri-neft sektorundan daxilolmalar 12859,2 milyon manat təşkil etmişdir ki, bu da proqnozdan 10,4 faiz (1208,2 milyon manat), 2020-ci illə müqayisədə isə 20,4 faiz (2179,6 milyon manat) çoxdur.

**Dövlət büdcəsinin xərcləri**

2021-ci ildə dövlət büdcəsinin xərcləri 27412,5 milyon manat və ya proqnozla müqayisədə 96,0 faiz təşkil edib. Bu, 2020-ci ilin göstəricisindən 3,8 faiz (996,2 milyon manat) çoxdur.
2021-ci il dövlət büdcəsinin kəsiri 3116,0 milyon manat proqnozuna qarşı 1017,0 milyon manat təşkil etmişdir (67,4% az). Büdcə kəsirinin ÜDM-də xüsusi çəkisi 1,1 % (proqnozdan 2,7 % az) təşkil etmişdir. Kəsir xarici kreditlər (346,6 milyon manat), daxili və xarici borclanma (557,7 milyon manat), dövlət əmlakının özəlləşdirilməsi (112,7 milyon manat) hesabına maliyyələşdirilmişdir.

**İcmal Büdcə**

2021-ci ilin icmal büdcəsinin gəlirləri 33902,9 milyon manat təşkil etmişdir ki, bu da proqnozdan 42,3 faiz (10074,8 mln. manat) çoxdur. Bundan başqa, bu, 2020-ci ilin göstəricisindən 38,6 faiz (9437,7 milyon manat) çoxdur. İcmal büdcənin xərcləri 29980,6 mln. manat təşkil etmişdir ki, bu da 2020-ci illə müqayisədə 2,8 faiz (820,5 milyon manat) çoxdur. İcmal büdcənin kəsirinin 7335,3 milyon manat həcmində proqnozlaşdırmasına baxmayaraq, 3922,3 milyon manat həcmində büdcə profisiti əldə edilmişdir.

Figure 9. Büdcənin illər üzrə icra dərəcəsi (%)



# DÖVLƏT MALİYYƏ İDARƏETMƏSİ. ORTA-MÜDDƏTLİ MAKROFİSKAL ÇƏRÇİVƏ, 2022-2025

2021-ci ildə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (MN) "2022-2025-ci illər üçün makro-fiskal çərçivəsi"ni hazırlamışdır. Sənəddə 2022-ci il və orta müddətli dövr üçün makroiqtisadi proqnozlar, ölkənin sosial-iqtisadi inkişafı üçün dövlət xərclərinin prioritetləri və müvafiq olaraq fiskal siyasətin əsas istiqamətləri, dövlət büdcəsinin gəlir və xərcləri, eləcə də dövlət borcu haqqında əsas məlumatlar öz əksini tapmışdır. Bundan əlavə, 2021-ci ilin əvvəlində MN dövlət büdcəsi xərclərinin səmərəliliyini və məhsuldarlığını artırmaq üçün ortamüddətli xərclər çərçivəsi alətini təqdim etmişdir. Xərclər çərçivəsi təhsil, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi sektorları üçün hədəflər və fəaliyyət göstəriciləri olan strateji və fəaliyyət planlarını, həmçinin bu məqsədlərə nail olmaq üçün həyata keçiriləcək proqramları əhatə edir. Ümumilikdə, bu təşəbbüslər nəticəəsaslı büdcələşdirməyə böyük keçid kimi təsvir olunur.



© UNICEF Azerbaijan/2022/Aliyev

Qrafik 10. Prioritet sektorların ortamüddətli büdcə xərclərində payı (%)




Uşaqlar üçün dövlət xərclərini bu təhlillərdə yer almayan ətraf mühit, iqtisadi fəaliyyətlər, ictimai xidmətlər və s. kimi digər kateqoriyalarda tapmaq olar. Bundan əlavə, prioritet sektorlar üzrə ayırmalar o demək deyil ki, bütün bu ayırmalar birbaşa uşaqlara və uşaqlı ev təsərrüfatlarına gedir. Məsələn, təxmini təhlillərə əsasən, sosial müdafiə ayırmalarından cəmi 335 milyon manata yaxını uşaqlara və ya uşaqlı ev təsərrüfatlarına sosial köçürmələrdir.

**UNICEF-in Azərbaycan nümayəndəliyi uşaqlar üçün dövlət xərclərinin izlənilməsi və büdcənin tərtib edilməsi üsullarını təkmilləşdirmək məsələlərində hökumətə dəstək verməyə hazırdır.**

## Əlavə 1: 2022-2025-ci illər üçün dövlət büdcəsi

| 2022-2025-ci illər üçün dövlət büdcəsinin proqnozu | | | | |
|---|---|---|---|---|
| | 2022 | 2023 | 2024 | 2025 |
| Gəlirlər | ↓ 26,407,000,000₼ | ↑ 26,539,000,000₼ | ↑ 26,825,000,000₼ | ↑ 27,127,000,000₼ |
| Xərclər | ↑ 28,974,000,000₼ | ↓ 28,600,000,000₼ | ↑ 28,620,000,000₼ | ↑ 28,640,000,000₼ |

## Əlavə 2: Əsas İnkişaf Göstəriciləri

| | |
|---|---|
| Ümumi əhali (2021) | 10,119,100 |
| 0-17 yaş arası uşaqlar (2021) | 2,634,600 |
| Uşaqların (0-17 yaş) ümumi əhaliyə nisbəti | 26% |
| Adambaşına düşən ÜDM (USD, 2021) | 5 452 |
| Yoxsulluq səviyyəsi (2020) | 6.2% |
| Kəskin (Mütləq) yoxsulluq səviyyəsi | 0% |
| Ümumi dövlət xərcləri ÜDM-in faizi kimi (2021) | 29.5 % |
| Ümumi sosial xərclər (təhsil, səhiyyə, sosial müdafiə) dövlət büdcəsində payı (2022) | 31.2 % |
| Büdcə kəsirinin (2021) ÜDM-də payı | 1% |
| Xarici dövlət borcunun ÜDM-ə nisbəti (2021) | 18.2% |
| İnflyasiya dərəcəsi (2021) | 6.2 % |



© UNICEF Azerbaijan/2022/Aliyev

## Əlavə 3: Büdcə təqvimində əsas hadisələr

| **Ay** | **Fəaliyyət** |
|---|---|
| Yanvar (son on gün) | Gələn il və növbəti üç il üçün dövlət büdcəsi layihəsinin hazırlanması prosesi Nazirlər Kabinetinin sərəncamı ilə başlayır. |
| Fevral-Mart | İqtisadiyyat Nazirliyi ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarını hazırlayır. Bu proqnozlar əsasında Maliyyə Nazirliyi dövlət və icmal büdcələrin ilkin ortamüddətli proqnozlarını hazırlayır. Hazırlanmış sənədlər Maliyyə və İqtisadiyyat nazirlikləri tərəfindən Nazirlər Kabinetinə təqdim olunur. |
| Aprel | Maliyyə Nazirliyi növbəti üç il üçün büdcə layihəsinin və icmal büdcənin göstəricilərinin hazırlanması üçün layihənin hazırlanması prosesində iştirak edən təşkilatlara təlimat məktubları göndərir. |
| May | Gəlirləri təmin edən və dövlət büdcəsindən maliyyələşən təşkilatlar büdcə layihəsini hazırlayıb Maliyyə Nazirliyinə təqdim edirlər. |
| İyun-İyul | İqtisadiyyat Nazirliyi növbəti il və orta müddət üzrə makroiqtisadi göstəriciləri, eləcə də sosial, iqtisadi, investisiya proqramlarını dəqiqləşdirir. Maliyyə Nazirliyi ətraflı proqnozlar və hazırlanmış proqramlar əsasında dövlət büdcəsinin gəlir və xərclərini yenidən hesablayır. |
| Avqust | Müəyyən edilmiş rəqəmlər rəsmi olaraq təşkilatlarla razılaşdırılır. Maliyyə Nazirliyi növbəti üç il üçün dövlət büdcəsini, icmal büdcə layihələrini və icmal dövlət büdcəsinin göstəricilərini Nazirlər Kabinetinə və Hesablama Palatasına təqdim edir. |
| Sentyabr | Nazirlər Kabineti büdcə sənədlərini prezidentə təqdim edir. |
| Oktyabr(15 -dən gec olmayaraq) | Prezident büdcə layihəsini müzakirə üçün Milli Məclisə təqdim edir. |
| Noyabr-Dekabr | Dövlət büdcəsinin və icmal büdcənin layihələri Milli Məclisin komitə və plenar iclaslarında müzakirə edilərək qəbul edilir. |
| Dekabr | Prezident büdcəni rəsmi olaraq təsdiq edir. |



© UNICEF Azerbaijan/2022/Aliyev

# İstinadlar


- Azərbaycan Respublikasının 2022-ci il dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı
  http://maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/61cdd757e0a42.pdf

- 2022-2025-ci illər (2022-2025) üçün Ortamüddətli Makro-Fiskal Çərçivə
  http://maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/61cdd967407d9.pdf

- Vətəndaşların Büdcə Bələdçisi (2022)
  http://maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/61c73d7480543.pdf

- Azərbaycan Respublikasının 2021-ci il dövlət və icmal büdcəsinin icrası (əməliyyatı) haqqında məlumat
  http://maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/61ea51752f1ad.pdf

- Azərbaycan Respublikasında COVID-19 pandemiyasına qarşı cavab tədbirləri
  https://www.ohchr.org/Documents/Events/GoodPracticesCoronavirus/azerbaijan-submission-covid19.pdf

- Azərbaycanda Uşaqlar, Statistik Məcmuə - 2021.

UNICEF Azərbaycan
24. Neftçilər pr., Bakı, Azərbaycan, AZ1095
Tel: (+994 12) 492 30 13
www.unicef.org/azerbaijan
/UNICEFAzerbaijan

unicef

hər bir uşaq üçün